# X SINIFDƏ ÜZVI KIMYANIN TƏDRISI PROSESINDƏ EKOLOJI ANLAYIŞLARIN FORMALAŞDIRILMASI

**G.V. Şadlinskaya, G.Ə. Qasımova**

*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

X siniflərdə fəal təlim metodu ilə neft emalı zamanı yaranan ekoloji problemlər mövzusunda dərsi təşkil edən zaman müəllim, tənqidi düşüncə formalaşdıran dərs tipindən istifadə edə bilər. Dərsin əsas məqsədi şagirdlərdə neftin təbiətdə təbii mənbələri, onun çıxarılması və emalı zamanı yaranan ekoloji problemlər haqqında bilik formalaşdırmaqdır. Müəllim, şagirdlərin hər birinin dərsin gedişində fəal iştirak etməsi məqsədilə düşündürücü suallarla müraciət edərək problemli situasiya yaradır.

Neft haqqında nə blirsiniz?

Neft emalı zamanı əmələ gələn çirkləndiricilər və onların əmələ gətirdiyi ekoloji problemlər barədə hansi fikirlərə maliksiniz?

Bu problemləri aradan qaldırmaq üçün hansı tədbirlər həyata keçirilir?

Uşaqlar, siz bilirsiniz ki, neft – qara qızıl adlanır. Azərbaycanın təbii sərvəti sayılır, xaricə ixrac edilir. Neft müxtəlif qarışıqlardan ibarət olan özlü mayedir. Şagirdlər neftin fiziki xassələri, emalı zamanı yaranan ekoloji problemləri, neft emalı zavodlarının fəaliyyəti zamanı yaranan problemləri əks etdirən slaydlar nümayiş etdirirlər.

Müəlim dərsi qruplarla iş formasından istifadə edərək təşkil edir. Sinif hər bir qrupda 6 nəfər olmaqla 4 qrupa bölünür.

I qrupa – neftin fiziki xassələri və kimyəvi tərkibi tapşırılır

II qrupa – Azərbaycanda neftin daha çox yayıldığı bölgələr haqqında məlumat əldə etmək tapşırılır

III qrup – rekifikasiya kolonunun iş prinsipini öyrənir və neftin fraksiyalara ayrılmasını müşahidə edir

IV qrup – neft məhsullarının krekinq və riforminqini dərsliklərdən araşdırır, doymamış karbohidrogenlərin tərifini oyrənir, laboratoriya təcrübələri nəticəsində $KmnO_4$ məhlulu vasitəsilə benzinin tərkibini öyrənir

Bu suallardan sonra hər bir şagird oz fikrini səsləndirir, sinifdə canlanma yaranır. Şagirdlər fikir mübadiləsi və müzakirəsi edərək hər biri bir növ kiçik tədqiqatçıya çevrilmiş olurlar. Qruplar hesabatı təqdim etmək üçün lider seçirlər. Işin sonunda liderlər tapşırığı şagirdlərin dəftərindəki qeydlərə istinad edərək tam formada lövhədə nümayiş edərək danışırlar. Dərsin gedişində bir sıra qeyd olunan məsələlərə toxunulur [1].

Neft hasilatı, emalı sənaye müəssisələrində mövcud olan və ekoloji problemlərin yaranmasına səbəb olan texnoloji proseslərin ekoloji cəhətdən effektli aparılmasına görə daimi olaraq elmi-texniki inkişafın əsas istiqamətləri üzrə işlər, tədbirlər aparılır. Bu kimi işlərə aşağıda qeyd olunanları göstərə bilərik.

Belə ki, neftin ilkin hasilatından başlayaraq emalı üzrə istehsalat sahələrində texnoloji prosesləri həyata kecirən texnoloji qurğuların və avadanlıqların modernləşdirilməsi prosesi həyata keçirilir.

Xammal neftin sudan, mexaniki qarışıqlardan təmizlənməsi və neft emalı üzrə iqtisadi və ekoloji cəhətdən yüksək tələblərə cavab verən yeni texnoloji proseslər tətbiq olunur.

Emal olunacaq neft tərkibindəki duzlardan təmizlənir.

Istifadə olunması mümkün olmayan istehsalat tullantılarının təmizlənməsi, zərərsizləşdirilməsi, utilizasiyası üzrə yeni üsullardan istifadə olunur.

Neft hasilatı və emalı proseslərinin aparılması üçün tələb olunan enerji daşıyıcılarının səmərəli istifadə olunması təmin edilir.

Korroziyaya qarşı yeni inhibitor maddələrindən və həmçinin neft emulsiyasının dərindən parçalanması üçün yeni deemulqator maddələrindən istifadə olunması prosesi həyata keçirilir.

Neftin ilkin emalında və həmçinin neft məhsullarının sonrakı emal mərhələlərindən alınan istehsalat tullantılarının təmizlənməsi və istifadə olunma texnologiyalarının ekoloji effektli olaraq yeniləşdirilməsi tətbiq olunur.

Neft emalı proseslərinin aparılması zamanı optimal texnoloji şərait təmin edilir və itki normaları maksimum haldan minimum hala endirilir.

50 ildən çox müddət ərzində Heydər Əliyev adına Bakı Neft Emalı zavodunda 300 milyon tondan artıq neft emal olunmuş, yeni qurğular tikilmiş, müasir texnologiya tətbiq edilmiş, müxtəlif növ neft məhsulları istehsal edilmişdir.

Azərbaycan neftinin 24 çeşidindən 21-i Ümumilli lider Heydər Əliyev adına Bakı Neft Emalı zavodunda emal olunur ki, bunlardan da öz növbəsində 15 adda neft məhsulu, o cümlədən avtomobil benzinləri, aviasiya kerosini, dizel yanacağı, mazut, neft koksu və s. istehsal olunur.

Yer üzünə çıxarılan zaman təmiz halda deyil su, mexaniki qarışıqlar və bir sıra duzlarla birlikdə çıxır. Neftin tərkibində müxtəlif miqdarda həll olmuş qazlar, mexaniki qarışıqlardan isə qum, gil, duzlar da vardır. Neftə qarışmış müxtəlif xlorlu duzlar boru kəmərlərinə, rezervuarlara və neft emalı zavodlarının bir sıra aparatlarına aşındırıcı təsir göstərir.

Bundan əlavə sulu neftin emalında borulu sobada buxar tıxacı əmələ gəlir və qurğuda texnoloji prosesi pozur. Ona görə də nefti, neft emalı zavodlarına verməzdən əvvəl onu sudan və mexaniki qarışıqlardan ayırmaq lazımdır [2].

Neftin tərkibindəki həll olmuş halda olan qazlar həm qiymətli yanacaq və eyni zamanda neft- kimyəvi sintez üçün dəyərli xammaldır. Neftlə birlikdə çıxan qazlar özləri ilə birlikdə aşağı tempraturda qaynayan maye karbohidrogenlər də gətirir ki, onları da qazın tərkibindən ayırmaq lazımdır. Bu məqsədlə həmin qazları qazolin zavodunda xüsusi kalonlarda sıxıb, müəyyən təzyiq altında soyudurlar. Bu halda ağır karbohidrogenlər kondensləşib qazlardan ayrılır. Ayrılmış kondensant qaz benzini adlanır. Qazlardan azad edilmiş nefti mexaniki qarışıqlardan ayırmaq üçün xüsusi çənlərdə müəyyən müddət saxlayırlar. Bu şəraitdə həmin qarışıqlar çənlərin dibinə çökür və neftdən ayrlır. Bu zaman xam neftdəki suyun çox hissəsi də öz-özünə tədricən ayrılır. Çox vaxt neftin tərkibində mikroskopik su damcıları qalır ki, bunu ayırmaq çox böyük çətinlik törədir. Belə qarışıq neftin emulsiyası adlanır. Emulsiyanın möhkəmliyi neftdəki su damcılarının iri və xırda olmasından bilavasitə asılıdır. Emulsiyanı dağıtmaq üçün deemulqatorlardan istifadə edilsə də daha çox fiziki-mexaniki üsullardan istifadə edilir [3].

Bütün bunlar ilk növbədə elmi-texniki tərəqqinin əsas proqramına uyğun olaraq həyata keçirilir. Məhz buna görə də neft hasilatı və emalı sənayesində ekoloji problemlərin maksimumdan minimuma endirilməsi və ekoloji optimal variantların seçilməsi elmi-texniki inkişafın əsas proqramına-planlarına əsasən baş verir. Bununla da mövcud olan və layihələndirilən obyektlərdən ekoloji problemlərin qarşısının alınması və həmçinin baş verə biləcək yanğın, partlayış və ekoloji təhlükəsizliyin aradan qaldırılması üçün elmi-texniki inkişafın əsas istiqamətlərindən biri də istehsalatın avtomatik olaraq aparılmasının və ekoloji nəzarətin təşkil edilməsi üçün avtomatlaşdırılmanın təkmilləşdirilməsi və tətbiq edilməsidir.

Bəşəriyyət üçün çox təhlükəli qlobal ekoloji problemlərin yaranmasında mühüm rol oynayan mənbələrdən sayılan neftin hasilatı, nəqli, emalı ilə əlaqədar yaranan problemlər hər bir vətəndaşı maraqlandırmalıdır. Məhz buna görə də məktəblərdə neft hasilatı və emalı sənayesində baş verən ekoloji problemlərin yaranmasının səbəblərinin müəyyənləşdirilməsi, onların izahının verilməsi əsas şərtlərdən biridir. Neftin hasilatı və emalı sənaye müəssisələrində texnoloji proseslərin aparılmasından, texnoloji şəraitindən, texnoloji polad avadanlıqlarının korroziyadan mühafizə keyfiyyətindən, enerji daşıyıcılarından tələb olunan səviyyədə istifadə olunmasından və texnoloji təsirlərdən, tullantıların tutulması, təmizlənməsi, yenidən istifadə olunması, həmçinin daimi olaraq tələb olunan emalı, zərərsizləşdirilməsi üsullarından asılı olaraq və yaranan ekoloji problemlərin maksimum haldan minimuma endirilməsi əsaslarının izahının verilməsidir [4].

Neft emalı ilə bağlı yaranan ekoloji problemlərin izahını vererkən bu sahənin texniki və təbiət elm sahələri ilə sıx elaqəli olduğu meydana çıxır.

Müəllim belə fənlərlə  inteqrasiya təşkil edərək mövzunun şagirdlər tərəfindən qavranılmasını asanlaşdırmaq və onların fəallığını artırmağa nail olmalıdır.

Neft emalı və hasilatı ilə bağlı yaranan ekoloji problemlərin izahında aşağıda qeyd olunanlar şagirdlərə mütləq çatdırılmalıdır:

-neftin fiziki və kimyəvi xüsusiyyətləri, tərkibi haqqında eləcə də neft emalı və hasilatı sənayesində ekoloji problemlərin yaranması səbəbləri haqqında geniş izah

-neft hasilatı və sənaye müəssisələri tərəfindən litosferdə, hidrosferdə, atmosferdə və biosferdə yaranan ekoloji problemlər haqqında məlumatın verilməsi

-neft və neft məhsullarının təmizlənməsi, saxlanılması, daşınması, nəqli zamanı yaranan ekoloji problemlər haqqında izahın verilməsi

-neft emalı sənayesi haqqında ümumi məlumat

-neftin ilkin emalı zamanı yaranan ekoloji problemlər və onların aradan qaldırılması haqqında izahlar

-neft emalı sənayesində katalitik krekinq istehsalatında yaranan ekoloji problemlər haqqında izahın verilməsi

-benzin fraksiyasının katalitik riforminq prosesi zamanı yaranan ekoloji problemlər haqqında məlumat

-neft yağlarının istehsalı zamanı yaranan ekoloji problemlərin izahı

-bitum istehsalında yaranan ekoloji problemlər haqqında məlumat

-ağır neft məhsullarının tədricən kokslaşması istehsalatının ekoloji problemləri

-neft hasilatı və emalı sənayesində yaranan tullantıların təmizlənməsi və zərərsizləşdiriməsi üsulları haqqında izahın verilməsi

-neft emal edən sənaye müəsisələrinin ətraf mühiti kimyəvi çirkləndirməsi haqqında

-ətraf mühitə əsas çirkləndiricilərin təsir xüsusiyyətləri barədə məlumat

-neft hasilatı və emalı sənayesində ekoloji problemlərin həll olunması üsullarının izahı

-ətraf mühitin neft və neft məhsulları ilə çirklənməsinin insan sağlamlığına təsiri haqqında

-neft hasilatı və emalı zamanı yaranan ekoloji problemlər və onların aradan qaldırılması və ətraf mühit mühafizəsinin fəaliiyətinin əsas reallaşdırılması yollarının izahı [5].

Bütün bunlar haqqında məlumat, izah verildikdən sonra şagirdlərdə neftin fiziki-kimyəvi tərkibi,neftlə birlikdə çıxan çirkləndiricilər, biosferə antropogen təsir, neft hasilatı zamanı yaranan tullantıların zərərsizləşdirilməsi, neft hasilatı və emalı sənaye müəssisələri tərəfindən litosferdə, hidrosferdə, atmosferdə və biosferdə ekoloji problemlər haqqında biliklər formalaşmış olur.

Şagirdlərə neft hasilatı və emalı prosesi zamanı meydana çıxan ekoloji problemlər və onların aradan qaldırılması barədə məlumat verərkən müəllim, diafilmlərdən, slaydlardan istifadə edərək onlarda bu sahəyə marağı daha da artırmalı və ekoloji mədəniyyət formalaşdırmalıdır. Şagirdləri fəallaşdırmaq üçün bu sahəylə bağlı problemli situasiya yaratmaq və müzakirələr aparılmalıdır. Müəllim şagirdlərə əlavə ədəbiyyat siyahısı da verməlidir ki, onlar əvvəlcədən interaktiv üsulla keçirilən dərsə hazırlıqlı olsunlar.

Refleksiya və qiymətləndirmə dərsin yekununda təşkil edilir. Müəllim, şagirdlərə suallar verərək onların mövzunu necə mənimsədikəri barədə məlumat əldə edir və onları dərsi yekunlaşdırmağa dəvət edir. Şagirdlər qrup işində əməkdaşlıqları, istifadə etdiklərə resurslar və göstərdikləri nəticələr nəzərə alınmaqla qiymətləndirilir.

Dərsin sonunda ev tapşırığı olaraq şagirdlərə neft haqqında esse yazmaq tapşırılır.

Belə müzakirəli keçirilən dərslər nəticəsində şagirdlərdə ətraf mühitə qayğı hissi formalaşmış olur ki, bu da cəmiyyətimizin sağlam düşüncəli gənclərdən ibarət olması deməkdir [6].

## İstifadə edilmiş ədəbiyyat:

1. В. Ф. Дёмина «Состав и переработка нефти» Химия в школе 2016 № 3 стр. 34
2. Q. Məmmədli "Neft - qaz emalının texnologiyası" Bakı ;1964
3. A. M. Məhərrəmov, M. R. Bayramov " Neft kimyası və Neft- kimyəvi sintez" Bakı - 2003
4. Экология производства, научно – практический журнал 2005-2015 г.
5. N. M. Məmmmədovnvə b. Ekologiya (9-11 siniflər üçün ) Bakı:2000
6. «Развитие экологической культуры » Химия в школе 2015 Н-2 стр 29

*Г.В. Шадлинская, Г.А. Гасымова*

**Формирование экологических понятий в процессу меторие органической химии в 10 классе**

**РЕЗЮМЕ**

Целью статьи является формирование экологической культуры у учащихся методом активного обучения путей устранения загрязнений во время нефтепереработки. Загрязненные вещества, образовавщиеся во время производстве и обработки нефти отрицательна действуют на окружающую среды.

*G.V. Shadlinskaya, G.A. Gasimova*

**The formation of ecological consepts in the teaching of organic chemistry 10 th grade**

**SUMMARY**

Coal is to form ecologic culture in students by way of active training along with methods of elivination of pollutions occurred during oil processing. Is to report and teach the students about the oil production and the negative influence of the polluting substances formed during its processing on the environment.

**Açar sözlər:** neft, xammal, emal, çirkləndirici, şagird

**Ключевые слова:** нефть, сырье, обработка, загрязнитель, студент

**Key words:** oil, raw material, processing, pollutant, pupil.